# Kim mənim bu aldığım dəstəmaz kimi dəstəmaz alar sonra qəlbindən heç bir şey keçirtmədən iki rükət namaz qılarsa Allah onun keçmiş günahlarını bağışlayar

Osman ibn Əffanın (Allah ondan razı olsun) köləlikdən azad etdiyi Humran rəvayət edir ki, Osman (Allah ondan razı olsun) dəstəmaz almaq üçün su istədi. (Su gəlincə) qabdan əllərinə su tökərək əllərini üç dəfə yudu. Sonra sağ əlini qaba salıb su aldı sonra o su ilə həm ağzını yaxaladı, həm də burnunun içinə su səkdi sonra da suyu burnundan ifraz etdi. Sonra üç dəfə üzünü və üç dəfə qollarını dirsəklərə qədər yudu. Sonra başına məsh çəkdi. Sonra hər bir ayağını üç dəfə yudu. Sonra da belə dedi: Mən, Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) mənim dəstəmaz aldığım kimi dəstəmaz aldığını gördüm. O (dəstəmaz alıb qutardıqdan sonra) belə dedi: "Kim mənim bu aldığım dəstəmaz kimi dəstəmaz alar sonra qəlbindən heç bir şey keçirtmədən iki rükət namaz qılarsa Allah onun keçmiş günahlarını bağışlayar".

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Osman (Allah ondan razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) aldığı dəstəmazı daha aydın bir şəkildə anlatması üçün bunu şəxsən özü dəstəmaz alaraq öyrətmişdir. Belə ki, bir qab su istəmiş və öncə əllərinə üç dəfə su töküb yumuşdur. Sonra sağ əlini qabın içinə salıb bir ovuç su almış bu su ilə ağzını yaxalayıb suyu ağzından ifraz etmişdir. Sonra nəfəsi ilə burnunun daxilinə qədər su çəkmiş sonra isə suyu burnundan ifraz etmişdir. Sonra üzünü üç dəfə yumuş sonra da əllərini dirsəklərlə bərabər üç dəfə yumuşdur. Əllərini islatdıqdan sonra yaş əlləri ilə başını bir dəfə məsh etmişdir. Sonda isə topuqlar da daxil olmaqla ayaqlarını üç dəfə yumuşdur. Osman (Allah ondan razı olsun) dəstəmaz alıb qutardıqdan sonra Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) bu şəkildə dəstəmaz aldığını ətrafındakılara xəbər vermişdir. Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) onun dəstəmaz aldığı kimi dəstəmaz alıb sonra da xuşu ilə Rəbbinin huzurunda iki rükət namaz qılan kimsəyə, aldığı kamil dəstəmazına və həmçinin xuşu ilə qıldığı namazına görə Uca Allahın onun keçmiş günahlarını bağışlanacağı müjdəsini vermişdir.

النجاة الخيرية
ALNAJAT CHARITY

لجنة الدعوة الإلكترونية
EDC
E-Da'wah Committee